# *MƏKTƏB VƏ PEDAQOJİ FİKİR TARİXİ*
# *ИСТОРИЯ ШКОЛЫ И ПЕДАГОГИЧЕСКОЙ МЫСЛИ*
# *HISTORY OF SCHOOL AND PEDAGOGICAL THOUGHT*

*UOT 371*

***İradə Böyükağa qızı Əmirəliyeva***
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı elmi işçisi*
https://orcid.org/0000-0002-3319-7466

## QURANİ-KƏRİMDƏ TƏRBİYƏ MƏSƏLƏLƏRİ

***Ирада Боюкага гызы Амиралиева***
*доктор философии по педагогике*
*ведущий научный сотрудник Института Образования Азербайджанской Республики*

## ВОПРОСЫ ВОСПИТАНИЯ В КОРАНИ-КАРИМЕ

***Irada Boyukagha Amiraliyeva***
*doctor of philosophy in pedagogy*
*leading scientific worker at the Institute of Education of theRepublic of Azerbaijan*

## ISSUES OF UPBRİNGİNG IN KORANI-KARIM

**Xülasə**. Qurani-Kərim güclü tərbiyələndirici, təhsilləndirici və inkişafetdirici rola malikdir. Bu müqəddəs kitab tərbiyənin bütün tərkib hissələri, mənəvi tərbiyənin müxtəlif komponentləri üzrə təhsilalanlarla iş aparmaq üçün zəngin material verir.

Məqalədə müqəddəs kitabın tərbiyəvi imkanları araşdırılır.

***Açar sözlər:*** *Quran, Quran – tərbiyəedici mənbə kimi, Quran – təəhsilləndirici mənbə kimi, Quran – inkişafetdirici mənbə kimi, Quranda tərbiyəvi fikirlər*

**Резюме**. Коран играет сильную образовательную, воспитательную и развивающую роль. Эта священная книга дает богатый материал для работы со студентами по различным компонентам нравственного воспитания.

В статье рассматриваются воспитательные возможности священной книги.

***Ключевые слова:*** *Коран, Коран как воспитательный источник, Коран как образовательный источник, Коран как развивающий источник, воспительные идеи в Коране*

**Summary.** The Qur'an plays a strong educational, upbringing and developmental role. This sacred book provides rich material for working with students on various components of moral education.

The article deals with the upbringing possibilities of the holy book.

***Keywords:*** *Koran, Koran as an educational source, Koran as an upbringing source, Koran as a developing source, upbringing ideas in the Koran*

Qurani-Kərim müsəlmanların, o cümlədən azərbaycanlıların müqəddəs dini kitabıdır. Qafiyəli nəsrlə yazılmış bu müqəddəs kitab 114 surəni, 6200-dən çox ayəni özündə birləşdirir. Qurani-Kərimdə İslam dininin yaradıcısı həzrəti Məhəmməd peyğəmbərin (571-632) son dərəcə qiymətli kəlamları özünə yer almışdır. Həmin kəlamlar peyğəmbərin sağlığında kütlələr arasında şifahi şəkildə yayılırdı. Sonralar onlar bir araya gətirilərək toplandı və nəşr edildi. Bu, xəlifə Osmanın (644-656) təşəbbüsü əsasında həyata keçirildi.

Həzrəti Məhəmməd əleyhissəlam tarixdə Allahın sonuncu peyğəmbəri kimi qəbul olunur. Bu dahi tarixi şəxsiyyətin ən böyük uğurlarından biri də Ərəbistanı müsəlman hakimiyyəti altında birləşdirməsidir.

Həzrəti Məhəmməd peyğəmbərin adı tarixdə 100 son dərəcə nüfuzlu şəxslərin siyahısındadır. Özü də birinci yerdə qeyd edilir.

Qurani-Kərim güclü tərbiyələndirici, təhsilləndirici və inkişafetdirici rola malikdir. Bu müqəddəs kitab tərbiyənin bütün tərkib hissələri (mənəvi tərbiyə, əmək tərbiyəsi, estetik tərbiyə, hüquq tərbiyəsi, fiziki tərbiyə, ekoloji tərbiyə və s.); mənəvi tərbiyənin müxtəlif komponentləri (böyüyə hörmət, yaxşılıq və xeyirxahlıq, vətənpərvərlik, yoldaşlıq və dostluq, düzlük və doğruçuluq, vəfa, ər-arvad sədaqəti, ismət, namus, övlad tərbiyəsi və s.) üzrə təhsilalanlarla iş aparmaq üçün zəngin material verir.

"Ən-Nisa (qadınlar)" surəsində yaxşılıq və xeyirxahlığın faydası diqqət mərkəzinə gətirilir. Surədə deyilir: "Sənə yetişən hər bir yaxşılıq Allahdandır, sənə üz verən hər bir pislik isə özündəndir" (1, s. 90).

"Ali-İmran" (İmran ailəsi) surəsində də bu məsələ önəmli sayılmışdır. Diqqət yetirək: "(Qiyamət günü) hər kəs etdiyi yaxşı və pis əməlləri qarşısında hazır görəcək və günahları ilə özü arasında çox uzaq məsafə olmasını arzulayacaqdır" (1, s. 54).

Haqqında söz açılan surənin 136-cı ayəsi yaxşı işlər görənləri tərifləyir, onların mükafata layiq olduqlarını bildirir: "Yaxşı işlər görənlərin mükafatı nə gözəldir!" (1, s. 68).

Deməli, hər bir şəxs müdrik olmalıdır. Pislik etməyin insanlara necə ziyanlar, müsibətlər gətirdiyini bilməli, onların əzab çəkməyinə sevinməməlidir. İmkan daxilində yaxşılıq tərəfdarı olmalıdır.

Odur ki, Surənin 124-cü ayəsində yaxşılığı özünə yüksək mənəvi keyfiyyət sayan insanları nə gözlədiyi ehtiramla vurğulanır: "Mömin olmaqla bərabər, yaxşı işlər görən kişilər və qadınlar Cənnətə daxil olarlar. Onlara xurma çərdəyi qədər haqsızlıq edilməz" (1, s. 97).

Qurani-Kərim şər işlərdən uzaq durmağı, şeytanın əməlinə uymamağı tövsiyə edir ["Yeriməyin şeytanın yerişini", "Şeytan sizi yoxsulluqla qorxudaraq alçaq işlərə sövq edər", "Onlar o kəslərdirlər ki, doğrunu verib çaşqınlığı, məğfirəti (*günahdan keçmə*) verib əzabı satın almışlar", "Od tıxar qarınlarına yetimlərin malına haqsızlıqla yeyənlər"].

Bu müqəddəs kitabın "əl-Bəqərə (inək)" surəsinin 188-ci ayəsində haqsızlıq, başqasının qismətinə göz dikib onu bəlaya salmaq pislənir. Diqqət yetirək: "Bir-birinizin malını haqqınız olmadığı halda yeməyin. Xalqın malının bir qismini (*onun sizə haram olduğunu*) bilə-bilə günah yolu ilə yeməyiniz üçün onu (*malınızı*) hakimlərə (*rüşvət*) verməyin" (1, s. 27).

Eyni zamanda insanlara öz həyat tərzlərində düz dolanmaq, nümunəvi davranmaq, özünü yaxşı aparmaq kimi müsbət keyfiyyətlərə sahib olmaq məsləhət bilinir. Başqa cür hərəkət etmək özünü təhlükəyə atmaq kimi dəyərləndirilir. Qurani-Kərimdə deyildiyi kimi, "Öz əlinizlə özünüzü təhlükəyə atmayın, yaxşı-yaxşılıq edin! Allah yaxşılıq (ehsan) edənləri sevir" (1, s. 31), "Bir-birinizə yaxşılıq etməyi unutmayın! Allah sizin etdiklərinizi görəndir" (1, s. 40).

Haqqında söz açılan surənin ("əl-Bəqərə (inək)") 263-cü ayəsində şəxsiyyətlərarası ünsiyyətin səmərəli qurulmasının, insanların bir-biri ilə mehriban dolanmasının, lazım gələndə bir-birini bağışlamasının, güzəştəgetmənin vacibliyi diqqətə çatdırılır. Oxuyuruq: "Xoş bir söz və günahları bağışlamaq əziyyətlə (minnətlə) verilən sədəqədən daha yaxşıdır" (1, s. 45).

Müqəddəs kitabımız insanların, xüsusən də ehtiyac içində olanların köməyində durmağı savab bir iş sayır: "Yoxsullara aşkarda sədəqə verməyiniz yaxşıdır" (1, s. 46). "Əl-Bəqərə (inək)" surəsində bu hərəkət təqdir olunmaqla yanaşı, məsləhət görülür ki, sədəqənin gizlində verilməsi daha məqsədəuyğundur.

"Əl-Bəqərə (inək)" surəsində eyni zamanda səbir, hövsələ, təmkin, özünü saxlamaq müsbət keyfiyyət kimi dəyərləndirilir. Bu xüsusda "Allah səbir edənləri sevər!" kəlamı surənin 146-cı ayəsində özünə yer almışdır. Etiraf edək ki, çox zaman məhz özümüzü saxlamamaq, səbirsizlik etmək, həqiqəti ətraflı öyrənmədən, bəzən qəsdən yalan məlumatın çatdırılması səbəbindən özümüzü oda atır və son nəticədə peşman oluruq. Lakin, atalarımız demişkən, "Sonrakı peşmançılıq fayda verməz!"

"Ən-Nisa (qadınlar)" surəsinin 161-ci bəndində əmanətə xəyanət etməyin yolverilməz olmasından söz açılır. Göstərilir ki, "Əmanətə xə-

yanət edən şəxs, qiyamət günü xəyanət etdiyi şeylə (boynuna yüklənmiş halda) gələr" (1, s. 72).

Qurani-Kərimin "Əl-Nisa" surəsində həyatda, ailədə qadının roluna son dərəcə yüksək qiymət verilir. Kişilərə məsləhət görülür ki, qadınlarla Allahın xoşuna gələ biləcək bir tərzdə, bir tövrlə rəftar etsinlər. Eyni zamanda qadınların da ərləri qarşısındakı vəzifələrə münasibət bildirilir. Qadınların yollarını azdıqları təqdirdə nə etməli olduqları kişilərə xatırladılır. Oxuyuruq: "Kişilər qadınlar üzərində ixtiyar sahibidirlər (onların hamisidirlər). Bu, Allahın onlardan birini digərinə üstün etməsi və (kişilərin) öz mallarından (qadınlar üçün) sərf etməsinə görədir. Əməli saleh qadınlar (ərlərinə) itaət edib Allahın himayəsi sahəsində gizli şeyləri (ərinin sirrini, mal-dövlətini, namus və şərəfini) qoruyub saxlayırlar " (1, s. 84).

Müqəddəs kitabımız valideynlərimizə, qohum-əqrəbaya, yaxınlara, doğmalara hörmət etməyi, onların nüfuzunu qorumağı bizə tövsiyə edir. Atalarımız heç də təsadüfi deməmişlər ki, "Böyüyə hörmət elə, sən də böyüyəcəksən!" Bu yaşca bizdən böyük insanlar arasında ata-ananın xüsusi yeri vardır. Valideynlərimiz bizə həyat vermiş, bizi ayaq üstə qaldırmışlar.

Qurani-Kərimin "Ən-Nisa" surəsinin 36-cı ayəsində deyilir: "Ata-anaya, qohum-əqrəbaya, yetimlərə, yoxsullara, yaxın və uzaq qonum-qonşuya, yaxın (yoldaş və) dosta, (pulu qurtarıb yolda qalan) müsafirə (yolçulara), əlinizin altında olana (sahib olduğunuz qul və kənizlərə) yaxşılıq edin!" (1, s. 84).

Həmin ayədə eyni zamanda göstərilir ki, əliaçıq, səxavətli olmaq lazımdır: "Allah özünü bəyənənləri, lovğalıq edənləri sevməz" (1, s. 84).

Müqəddəs kitabımızın bəyənmədiyi mənfi keyfiyyətlərdən biri də xəsislikdir, imkanı olaola həm ailəsinin gün-güzəranına fikir verməyən, həm də başqalarının ehtiyacına, xahişinə məhəl qoymayan insanlar suçlanır. Diqqət yetirək: "O kəslər ki, özləri xəsislik etməklə bərabər başqalarını da xəsisliyə təhrik edir və Allahın lütfündən bəxş etdiyi nemətləri gizlədirlər (mütləq cəzalarına çatacaqlar)!" (1, s. 84).

Qurani-Kərimdə son dərəcə tərbiyələndirici və təhsilləndirici fikirlər var. Təəssüf ki, onların hamısının üzərində dayanmaq imkanımız xaricindədir.

**Problemin aktuallığı**. Qurani-Kərimin surələrində, ayələrində öz ifadəsini tapmış kəlamlara münasibət bildirilir.

**Problemin yeniliyi.** Qurani-Kərimin tərbiyələndirici, təhsilləndirici və inkişafetdirici imkanları diqqət mərkəzinə gətirilir.

**Problemin praktik əhəmiyyəti.** Məqalə gənc tədqiqatçılar, doktorant və dissertantlar, magistrlər və magistrantlar üçün faydalı olacaqdır.

**Ədəbiyyat**:

1. Qurani-Kərim. https://www.academia.edu/4138475/Quran_Tercumesi_Ziya_Bünyadov

**E-mail**:amiraliyeva_i@mail.ru

**Rəyçilər**: *ped.elm.dok., prof.* **A.N. Abbasov,**
*ped.ü.fəls. dok.* **L.A. Məmmədli**
**Redaksiyaya daxil olub**: 03.07. 2023.